DÜNYA XƏBƏRLƏRİ

Kemerovoda hərbi təyyarə qəzaya uğrayıb, 19 nəfər həlak olub

Noyabr 18, 2026



An-12 təyyarəsi

Noyabrın 17-də Rusiyanın Müdafiə Nazirliyi Kemerovo vilayətində An-12 hərbi-nəqliyyat təyyarəsinin qəzaya uğradığını təsdiqləyib. 19 nəfərin həlak olduğu açıqlanıb.

Məlumata görə, qəza planlı uçuş zamanı baş verib. Təyyarə yaşayış olmayan əraziyə düşüb.

Müdafiə Nazirliyi qəzanın səbəbi kimi texniki nasazlığı göstərib, hadisə yerində Rusiya Hava-Kosmik Qüvvələrinin komissiyasının işlədiyini bildirib.

Bundan əvvəl bir sıra media orqanları və Teleqram kanalları Kemerovo vilayətində An-12 hərbi təyyarəsinin qəzaya uğradığını xəbər vermişdi. Güc strukturlarına yaxınlığı ilə tanınan SHOT Teleqram kanalı və REN TV təyyarə olan 17 nəfərin hamısının həlak olduğunu bildirmişdi.

Vilayətin qubernatoru **İlya Seredyuk** əvvəlcə sosial şəbəkələrdə Yaqunovo kəndi yaxınlığında aviasiya hadisəsinin baş verdiyini yazmışdı. Daha sonra o, qəza yerindən yaydığı videomüraciətdə Kemerovo yaxınlığında qəzaya uğrayan təyyarənin vilayətdən tranzitlə keçdiyini bildirmişdi. Qubernator təyyarədə olan şəxslərlə bağlı məlumat verməmişdi.

SHOT qeyd edir ki, Novosibirskdən Kanska uçan təyyarə Yaqunovo yaxınlığında tarlaya düşüb. Qalıqları 500 metr radiusda ətrafa səpələnib. Kanalı təyyarədə təhlükəli yüklərin olmadığını, yerdə heç bir dağıntının qeydə alınmadığını bildirib.

Baza Teleqram kanalı şahidlərə istinadla təyyarənin havada yanmağa başladığını yazır.

Yaqunovo kəndi Kemerovo hava limanından 5 kilometr məsafədə yerləşir.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur